*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 170-179* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.170*

***Ədəbiyyat nəzəriyyəsi***

# ƏDƏBİYYAT NƏZƏRİYYƏÇİSİ SALİDƏ ŞƏRİFOVANIN ELMİ TƏDQİQATLARINA BAXIŞ

**Məmməd Əliyev**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: turk_xalqlari_edebiyyati@mail.ru

**Annotasiya.** Filologiya elmləri doktoru, AMEA-nın professoru, Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü Salidə Şərifovanın elmi fəaliyyətində ədəbiyyat tarixi ilə nəzəriyyəsinin sintezi özünü büruzə verir.
Nəzəriyyəçi alimin elmi yaradıcılığında milli ədəbiyyatda roman janrının iki mərhələli yaranma nəzəriyyəsi, "roman-hekayət"in janr konstruksiyasının xüsusiyyətləri, müharibə haqqında romanın yeni tipinin formalaşması, romanda janr qarışıqlığı, kreollaşmış romanların romanın xüsusi növü kimi fərqlənməsi və s. kimi aktual nəzəri problemlər özünü göstərir.
Salidə Şərifovanın ədəbiyyat nəzəriyyəsi üzrə ədəbi cərəyanlara, xüsusilə postmodernizm, magik realizm cərəyanlarına, detektivə elmi yanaşması, epik növün roman janrı və onun janr müxtəlifliyini, müasir irslə bərabər, klassik irsi, türk və türkdilli ədəbi irsi tədqiq etməsi, dünya ədəbiyyatı nümunələrini janr baxımdan tədqiqata cəlb etməsi, kreollaşmış romanlara münasibəti yüksək nəzəri səviyyəsi və zənginliyi ilə fərqlənir.
S.Şərifova romanda janr qarışıqlığının formalarını müəyyənləşdirmişdir. O, janr qarışıqlığının istifadə olunan formasından asılı olaraq, romanın janr mahiyyətini açıqlayaraq qruplaşdırmış və onun janr xüsusiyyətlərini müxtəlif janr qarışıqlıqları formaları çərçivəsində açıqlamışdır.
**Açar sözlər:** Salidə Şərifova, Azərbaycan ədəbiyyatşünaslığı, ədəbiyyat nəzəriyyəsi, elmi tədqiqat, nəzəriyyəçi alim

**Məqalə tarixçəsi:** göndərilib – 12.09.2023; qəbul edilib – 25.09.2023

# REVIEW OF SCIENTIFIC RESEARCHES BY SALIDA SHARIFOVA, LITERARY THEORIST

**Mammad Aliyev**
Doctor of Philological Sciences
Institute of Literature named after Nizami Ganjavi ANAS. Azerbaijan.
E-mail: turk_xalqlari_edebiyyati@mail.ru

**Abstract.** The scientific activity of the Doctor of Philology, Professor of ANAS, full member of the Russian Academy of Natural Sciences Salida Sharifova is manifested in the theory of literature, in the synthesis of history and theory of literature.

In the scientific work of the theoretical scientist, the theory of the two-stage emergence of the genre of the novel in Russian literature, the features of the genre construction of the “novel hekayat”, the formation of a new type of military novel, the theory of mixing genres in the novel, the identification of creolized novels as a special type of novel, and other such topical theoretical problems are considered.
Literary trends of Salida Sharifova in the theory of literature, features of postmodernism, directions of magical realism, detective story, epic novel and its genre diversity, the study of the classical heritage along with the modern heritage, the study of the Turkic-speaking literary heritage with the involvement of examples of world literature in genre studies, its relation to creolized novels are distinguished by a high theoretical level and richness.
S.Sharifova singled out the forms of mixing genres in the novel, grouped them, explaining the genre essence of the novel depending on the form of genre mixing used, and explained the genre features of the novel within the framework of different forms of mixing genres.
**Keywords:** Salida Sharifova, Azerbaijani literary criticism, theory of literature, scientific research, theoretical scientist

**Article history:** received – 12.09.2023; accepted − 25.09.2023

## Giriş / *Introduction*

Filologiya elmləri doktoru Salidə Şərifovanın elmi fəaliyyətində ədəbiyyat nəzəriyyəsi, Azərbaycan ədəbiyyatında nəsr janrlarının formalaşması, müasir ədəbiyyata dair elmi tədqiqatlar əsas yer tutur.

Salidə Şərifovanın elmi yaradıcılığında milli ədəbiyyatda roman janrının iki mərhələli yaranma nəzəriyyəsi, “roman-hekayət”in janr konstruksiyasının xüsusiyyətləri, müharibə romanı tipinin formalaşması, romanda janr qarışıqlığı nəzəriyyəsi, kreollaşmış romanların romanın xüsusi növü kimi fərqlənməsi və s. kimi aktual nəzəri problemlərə münasibət özünü göstərir. Salidə Şərifovanın ədəbiyyat nəzəriyyəsi üzrə ədəbi cərəyanları, xüsusilə postmodernizm, magik realizm cərəyanlarını, detektivi, epik növün roman janrını və onun janr müxtəlifliyini, türkdilli ədəbi irsin müasir ədəbi proseslə müqayisəli tədqiqi, dünya ədəbiyyatı nümunələrinə müraciəti, kreollaşmış romanlara münasibəti yüksək nəzəri səviyyəsi ilə fərqlənir. O, dünya romanlarında janr qarışıqlığı problemini ciddi tədqiq etmiş nəzəriyyəçi alimlərimizdəndir.

Salidə Şərifova romanda müxtəlif janrların, eyni zamanda ədəbi növlərin elementlərinin “qarışıqlığı”nın aparıcı janr faktoru kimi özünü büruzə verməsinə, romanın tipoloji müxtəlifliyinə də toxunmuşdur. Onun müxtəlif tipinin bir janrda sabit semantik nüvədə birləşməsini və semantik nüvənin sabitliyinin “janr əlamətlərinin” dəyişməzliyi hesabına təmin edilməsini elmi izah edir. Salidə Şərifova semantik nüvənin sabitliyini, qalan bədii priyomları özlərinə tabe edən dominant bədii priyomların mövcudluğu kimi göstərir.

## Əsas hissə / *Main Part*

Filologiya elmləri doktoru Salidə Şərifova XX əsrin 90-cı illərindən başlayaraq, xüsusilə də Qərb nəzəriyyəsində, kommunikativ janr nəzəriyyəsinin geniş yayılmasına toxunmuşdur. O, K.Bxatyanın janrı kommunikativ hadisə kimi təqdim etməsini, T.Eriksonun janrı kommunikativ pattern (şablon) kimi müəyyən etməsini, T.Lukmanın kommunikativ janr anlayışına müraciət etməsini, janrın kommunikativ anlayışı M.M.Baxtinin mövqeyi ilə uyğun olmasını göstərir. Salidə Şərifova M.M.Baxtinin janrı vahid kommunikativ funksiyalarda birləşdirməsini vurğulayır, kommunikativ funksiyanın kompozisiya və bədii üslub vasitəsi ilə həyata keçirilməsini qeyd edir. Kommunikativ funksiyanın janrın əsas funksiyalarından biri kimi qəbul

edilməsini vurğulayan Salidə Şərifova L.V.Çerneçin janrın xüsusiyyətlərini fərqləndirərkən, onların sırasına həmçinin kommunikativ funksiyanı aid etməsinə, V.B.Şklovskinin "kənarlaşdırılma" nəzəriyyəsi çərçivəsində fərziyyələrlə uyğunlaşdırmasına toxunur.

Tədqiqatçı alim XIX yüzilin sonu, XX yüzilin əvvəllərində yaranmış ilk romanlarımızın ənənələri üzərində yüksəlmiş roman janrını "İlk Azərbaycan romanları" monoqrafiyasında geniş tədqiq edir. XX əsrin əvvəllərində roman janrının təşəkkül etməsində xidmətləri olmuş M.F.Axundzadə, M.Ə.Talıbov, Z.Marağalı, N.Nərimanov, Y.V.Çəmənzəminli, A.Şaiq, M.S.Ordubadi kimi Azərbaycan və Cənubi Azərbaycan yazarlarının yaradıcılıqlarının az öyrənilməsi və tədqiq edilməsi məqamları işıqlandırılır. Salidə Şərifovanın "İlk Azərbaycan romanları" monoqrafiyasında ilk Azərbaycan romanlarının dünya romançılığı təcrübəsi kontekstində, Şərq poetikası ənənələri əsasında tədqiq edilməsi, elmi ictimaiyyətə məlum olmayan və ya az məlum olan əsərləri tədqiqata cəlb etməsi elmi yenilikdir. Müəllif Azərbaycan romanının yaranması haqqında elmi mübahisələrə, ədəbiyyatımızda roman janrının yaranma və təkmilləşmə mərhələlərinə aydınlıq gətirməklə, çağdaş roman janrında onların mövqeyini açır. Diqqəti cəlb edən maraqlı məqamlardan biri də müəllifin Azərbaycan roman janrının səyahətnamə, sərgüzəşt, məktub, traktat, qissə, boy, namə, əhvalat, fantastika və s. ənənəvi nəsr janrlarından yeni tipli romana gəlişini aydınlaşdırmasıdır. Azərbaycan ədəbiyyatında ilk romanlar haqqında sistemli tədqiqat olan "İlk Azərbaycan romanları" monoqrafiyasında tədqiq edilən roman nümunələrinin realist-satirik, lirik-psixoloji, lirik-romantik, sentimental-idillik, didaktik-alleqorik, bədii-fəlsəfi, elmi-pedaqoji, fantastik və s. janr xüsusiyyətləri və üslublarına aid olmaları müəllif tərəfindən araşdırılır.

S.Şərifova "Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşması prosesi (XX əsrin əvvəllərinə qədər) monoqrafiyasında XX əsrin əvvəllərinə qədər Azərbaycan ədəbiyyatşünaslığında təşəkkül tapmış və formalaşmış nəsr janrlarını tədqiq edir. Şifahi xalq ədəbiyyatından qaynaqlanan milli nəsrin təşəkkül və inkişaf prosesi, meydana çıxmış problemli məsələlər, təkamül prosesinin qanunauyğunluqları məsələsi geniş tədqiqat obyektinə çevrilmişdir. "Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşması prosesi (XX əsrin əvvəllərinə qədər)" monoqrafiyasına ön söz yazmış filologiya elmləri doktoru, professor Şamil Salmanov monoqrafiyanı yüksək dəyərləndirərək qeyd etmişdir ki, "tədqiqat işi ədəbiyyatşünaslıq problemlərini, milli ədəbiyyatımızın tarixi təkamülü prosesində janrın konkret imkanlarını, ədəbi janrların spesifik xüsusiyyətlərini, çoxəsrlik ənənələrinin üzə çıxarılmasını əhatə etdiyindən ədəbiyyatşünaslığımızın uğurlu hadisələrindən biridir" [6, s.4-5].

Professor Şamil Salmanov Salidə Şərifovanın "Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşma prosesi (XX əsrin əvvəllərinə qədər)" adlı monoqrafiyasında konkret olaraq, ədəbiyyatımızda nəsr janrlarının təşəkkül və formalaşması prosesinin əks olunması məsələsinə nəzər salmasına, nəsr janrlarının təşəkkül və formalaşma prosesini və problemin tarixini XX əsrdən daha əvvəlki dövrlərlə bağlamasının elmi maraq kəsb etməsinə də toxunmuşdur. Ş.Salmanov nəzəriyyəçi alimin monoqrafiyada ədəbiyyatımızda janrın təsnifat problemlərinə nəzər salmasını, ayrı-ayrı janrlara məxsus özəl cəhətlərini ətraflı açıqlamasını vurğulaması Salidə Şərifovanın nəzəri biliklərini praktik şəkildə həyata keçirə bilməsini əks etdirir. Monoqrafiyada elmi əhəmiyyət kəsb edən saf və qarışıq janr probleminə Salidə Şərifovanın münasibət bildirməsinə və düzgün dəyərləndirməsinə Şamil Salmanov tərəfindən də münasibət bildirilmişdir:

"Bu kontekstdə S.Şərifova tərəfindən milli ədəbiyyatımızda saf və qarışıq janrlar probleminin təhlil edilməsi, "qarışıqlığın" pillələrinin müəyyənləşdirilməsi xüsusi önəm daşıyır. Janrların təsnifatında saf və qarışıqlı olması açıqlanmış, janrların bu fərqli xüsusiyyətləri yalnız növlərarası deyil, həmçinin janrlararası və strukturdaxili müşahidə edildiyi əsaslandırılmışdır" [6, s.4].

Prof. S.Şərifova "Генезис Азербайджанского романа: жанровые характеристики романа-хекаята и "маленького романа" – "Azərbaycan romanının genezisi: roman-hekayət və "balaca romanlar"ın janr xüsusiyyətləri"

adlı monoqrafiyasında XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında roman janrının təşəkkül və formalaşma prosesini tədqiq etməsi ilə diqqəti cəlb edir. Salidə Şərifova milli ədəbiyyatda roman janrının yaranma dövründəki təsnifatını roman və romana bənzər əsərlər olaraq iki qrupa ayırır. Müəllif bu təsnifatı şərti olaraq, "roman-hekayət" və "balaca romanlar" terminləri ilə adlandırır. Salidə Şərifova "roman-hekayət" və "balaca romanlar" anlayışlarına münasibət bildirir, bu cür roman nümunələrinin janr xüsusiyyətlərini incələyir. Salidə Şərifova "roman-hekayət" və "balaca romanlar" nümunələrinin sayca az olmasına baxmayaraq, onların yeni janr özünəməxsusluğunun təşəkkülündən bəhs edir, bədii nümunələrin ətraflı təhlili ilə əsaslandırır. Monoqrafiyanın rus dilində qələmə alınması Azərbaycan roman janrının təkamül prosesi ilə həm respublikamızın, həm də başqa ölkələrin rusdilli əhalisinə tanış olmaq imkanı yaradır.

Salidə Şərifovanın "Жанровое смещение в романе: коммуникативно-социокогнитивный подход" – "Romanda janr qarışıqlığı: kommunikativ-sosiokoqnitiv yanaşma" monoqrafiyası Azərbaycan romanlarının müxtəlif aspektlərdən tədqiq sahəsində ədəbiyyatşünaslıqda mövcud olan elmi əsərləri tədqiq etməsi ilə diqqəti cəlb edir. O, ilk dəfə olaraq, dünya və Azərbaycan yazıçılarının qələmə almış olduqları roman nümunələri əsasında roman janrının müxtəlifliyini, onların növlərinin nəzəri aspektlərini geniş tədqiq edir. Monoqrafiyada Azərbaycan romanlarının janr müxtəlifliyinin nəzəri aspektləri və roman janrının folklor, mifologiya ilə əlaqəsi, habelə fantastik, detektiv tipli romanların səciyyəvi xüsusiyyətləri, roman janrının roman-səyahətnamə, roman-poema, roman-melodrama, roman-esse və s. növləri də geniş tədqiq olunur.

"Çağdaş Azərbaycan postmodern romanı" monoqrafiyası Salidə Şərifovanın elmi nəzəri təcrübəsinin zənginliyini bir daha isbat edir. Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 17 noyabr 2014-cü il tarixli 12 saylı iclasının qərarı ilə çapa tövsiyə olunan monoqrafiyada müəllif Azərbaycan ədəbiyyatında kifayət qədər tədqiq olunmamış, sistemsiz xarakter daşımış Azərbaycan postmodern romanlarının yaranması və janr xüsusiyyətlərini geniş tədqiq edir. Bu monoqrafiyada müəllif postmodernizmin mahiyyətinə, Azərbaycan postmodern romanının bədii təşkili xüsusiyyətlərinə, fabulasına, süjet və süjet xətlərinə, obrazlarının açıqlanmasına və digər aktual məsələlərinə nəzər salır. Monoqrafiyada Kamal Abdullanın "Yarımçıq əlyazma", "Sehrbazlar dərəsi", Sabir Rüstəmxanlının "Göy Tanrı", Anarın "Ağ qoç, qara qoç", Həmid Herisçinin "Nekroloq", Şəmil Sadiqin "OdƏrlər", İlqar Fəhminin "Qarğa yuvası", "Akvarium", Aydın Talıbzadənin "Kəpənək modeli. 102", Şərif Ağayarın "Haramı", Şəbnəm Karslının "2087-ci il", Taleh Şahsuvarlının "Canlanma", Kəramət Böyükçölün "Çöl", Əli Əkbərin "Amneziya", Pərviz Cəbrayılın "Yad dildə", Aqşin Yeniseyin "Göləqarğısancan", Nərmin Kamalın "Aç, mənəm", Elxan Qaraqanın "A", Nicat Məmmədovun "Прогулка" ("Gəzinti"), Elxan Xanəlizadənin "Yol", Hafiz Mirzənin "Son və başlanğıc", Kamran Qasımovun "İyirmi üç ay", Nurəddin Adiloğlunun "Qara sarmaşıq", Akif Əlinin "Dumanlı dağlar" və digər yazarların qələmə almış olduqları əsərlərin postmodern üslubda yazılmış romanlar kimi təhlil obyektinə çevrilməsi postmodernizm cərəyanının Azərbaycan ədəbiyyatında özünəməxsus yer tutmasının təsdiqidir. Postmodernizm cərəyanına münasibətin birmənalı olmaması, postmodern üslubda qələmə alınmış ilk əsərlərə reaksiyaların sərt olması faktı da nəzəriyyəçi alim tərəfindən monoqrafiyada diqqətə çatdırılır.

S.Şərifova Azərbaycan ədəbiyyatı və mədəniyyətində "postmodernizm" termininin tənqidçi və yazarlar arasında müzakirələrə səbəb olmasına toxunur, müxtəlif fikir ayrılığının olmasını qeyd edir. Postmodern üslubda əsər qələmə almış Nərmin Kamalın "postmodernizmin öldüyü" faktını səsləndirməsi Salidə Şərifova tərəfindən vurğulanır: "Umberto Eko və Postmodernizm fəlsəfəsi" kitabının müəllifi Nərmin Kamal isə postmodernizmin öldüyünü qeyd edir". Postmodernizmin öldüyünü, yəni artıq mövcud olmadığını iddia edən Nərmin Kamal postmodern roman nümunəsi qələmə almış yazarlardan biri kimi təqdim edilir. Nərmin Kamalın "Aç, mənəm" əsərinin postmodern üslubda yazılmış əsər kimi təqdim və təhlil edilməsi

monoqrafiyada diqqəti cəlb edir. Salidə Şərifova postmodernizmə xas əlamətlərdən olan paralel düzülüşə, eyni zamanda bir neçə təhkiyəyə, fraqmentar fabulaya, modelləşdirilmiş süjet xəttinə Nərmin Kamalın qələmə aldığı əsərdə rast gəlinməsi faktına toxunur və əsərdəki paralel düzülüşü belə təqdim edir: "Paralel düzülüş prinsipi gənc Azərbaycan yazıçısı Nərmin Kamalın "Aç, mənəm" (2010) əsərində istifadə edilir. Kompozisiya cəhətdən roman belə qurulub ki, onun hər bir hissəsi hekayəyə aid edilə bilər, amma ümumilikdə əsərin bütün hissələri vahid ideya və müəllif düşüncəsi ətrafında birləşdirilib. Romanın baş qəhrəmanının öz adından imtina edərək, başqa adlar adı altında müxtəlif həyat yaşaması belə tərtibatı mümkün etmişdir". Nərmin Kamalın "Aç, mənəm" əsərində modelləşdirilmiş süjet xəttinin bəzi əlamətlərini özündə əks etdirməsini S.Şərifova müxtəlif süjet xətlərinin bir-biri ilə qarışmasında görür. Əsəri mütaliə etdikcə süjet xəttinin hekayədən hekayəyə inkişaf etməsinin şahidi olursan.

Azərbaycan ədəbiyyatının inkişaf mərhələsinin müəyyən tarixi məqamlarında, tarixi şəraitə uyğun konkret təzahür formaları kimi çıxış edən ədəbi cərəyanlara münasibət, ədəbi növlər və janrlar və s. haqqında elmi yanaşmalar Salidə Şərifovanın "Ədəbi prosesə nəzəri baxış (tənqidi məqalələr – 2003-2005-ci illər)", "Ədəbi prosesə nəzəri baxış (tənqidi məqalələr – 2006-2007-ci illər)", "Klassiklər və müasirlər söz müstəvisində" kimi məqalələr toplularında əksini tapır. "Ədəbi prosesə nəzəri baxış (tənqidi məqalələr – 2003-2005-ci illər)" məqalələr toplusunda 2003-2005-ci illər ərzində qələmə alınmış tənqidi məqalələrin yer alması elmi maraq kəsb edir. Topluda klassik felyetonlarda Azərbaycançılıq çağırışının özünü göstərməsi, "Qarabağ romanı" janrının və Elçin Mehrəliyevin "Doxsanıncı illər" romanının da "Qarabağ romanı" janrının nümunəsi kimi tədqiq edilməsi, Əflatun Saraclının lirik şeirləri haqqında düşüncələr, Azərbaycan nəsrinin tərcüməsi ilə bağlı problemlərə aydınlıq gətirilməsi, janr istilahının etimologiyası, ədəbiyyatşünaslıqda nəsr janrlarının təsnifatı, hekayə və sərgüzəşt janrlarının əsas xüsusiyyətlərinin açıqlanması və s. məsələlər əksini tapır. Kitabda müəllifin Ağa Mirzə İsmayıl Asəfin "Dastani-Şükufət-Sərgüzəşti-Yetiman", A.Bakıxanovun "Kitabi-Əsgəriyyə", Nizami Gəncəvinin "Xəmsə"sinin janr xüsusiyyəti, Mir Mövsüm Nəvvab haqqında qələmə alınmış kitaba münasibəti, Nüşabə Araslının "Nizami poetikası" kitabı haqqında elmi mülahizələri də yer alır. "Ədəbi prosesə nəzəri baxış (tənqidi məqalələr – 2003-2005-ci illər)" məqalələr toplusu ədəbi fikrin bir sıra milli, spesifik xüsusiyyətlərinə, ədəbi proses və görkəmli şəxsiyyətlərin görüşlərini əhatə edən elmi və tənqidi məqalələr ədəbiyyatşünaslığın uğurları kimi dəyərləndirilməlidir. Salidə Şərifovanın məqalələr toplusunda yer almış "Azərbaycan nəsrinin tərcüməsi ilə bağlı problemlər" adlı məqaləsində tərcüməçilik problemləri işıqlandırılmış, milli tərcüməçiliyin tarixinin XIX əsrlə deyil, daha qədim tarixlə bağlanması diqqəti cəlb edir. Salidə Şərifova tərcümə ədəbiyyatının təsiri nəticəsində milli ədəbiyyatımızın süjet və janr baxımından zənginləşməsinə, Azərbaycan ədəbiyyatının uşaq ədəbiyyatı kimi müstəqil qolunun formalaşmasına təsiri amillərinə toxunur. Müəllif tərcümə işinə yaradıcı şəkildə yanaşmağı tərcümənin yüksək bədii keyfiyyətini təmin edən amil olmasını vurğulayır, orijinal əsərin həm ideyasını, həm bədii xüsusiyyətini olduğu kimi saxlanmasını təbliğ edir.

S.Şərifova "Ədəbi prosesə nəzəri baxış (2006-2007-ci illərin tənqidi məqalələri)" adlı məqalələr toplusunda ədəbiyyatşünaslıq məsələlərinə yeni metodoloji yanaşması ilə diqqəti cəlb edir. "Milli ədəbiyyatda poeziya məsələlərinə dair" və "Azərbaycan romanlarının özəlliklərinə dair" iki hissədən ibarət olan məqalələr toplusunda klassik poeziyamızda janrların yaranması və inkişafına, poeziyada istifadə edilmiş motiv və obrazlara, roman janrının genezisi və inkişafı, həmçinin "Qarabağ romanı" kimi yeni tip romanın yaranmasına toxunur. Məqalələr toplusunda Əfzələddin İbrahim Xaqani Şirvaninin "Töhfətül-İraqeyn" əsərinin janr mənsubiyyəti, Məhəmmədhüseyn Şəhriyarın Cənubda anadilli şeirimizin ən yüksək zirvəsi kimi təqdim edilməsi, Anarın "Ağ qoç, qara qoç" əsərində milli yol axtarışı, Sabir Rüstəmxanlının "Göy Tanrı" romanının ideoloji mahiyyəti, əsas obrazlarının təhlili, Əlibala Hacızadənin "Möcüzə" romanında süjet xəttinin və obrazların təsvir özəllikləri və s. əksini tapır. "Azadlıq

carçısı – Məhəmmədhüseyn Şəhriyar" adlı məqalədə Türk dünyasının böyük oğlu Məhəmmədhüseyn Şəhriyarı Azərbaycan azadlıq carçısı kimi dəyərləndirən Salidə Şərifovanın şairin milli kökə, tarixə, adət-ənənələrə çağırışı barədəki mülahizələri maraq kəsb edir. O, Şəhriyarın Vətənə məhəbbətindən irəli gələn müstəmləkəçi rejimə olan nifrətini yaradıcılığında əks etdirməsi məsələlərinə nəzər salır və şairin hələ birləşməyən, bütövləşməyən Vətənin dərdini qələmə almasını təhlil obyektinə çevirir. Müəllif Azərbaycan romanının janr müxtəlifliyinin nəzəri aspektlərini, romanın janrlar daxilində differensiyalaşmasını, digər janrlarla sintezini isə "Azərbaycan romanının xüsusiyyətləri və janr müxtəlifliyinin nəzəri aspektləri" yazısında təqdim edir.

Salidə Şərifovanın "Klassiklər və müasirlər söz müstəvisində" adlı məqalələr toplusu problemli ədəbiyyatşünaslıq məsələlərinə yeni yanaşma və nəticələrin elmi aktuallığı baxımdan əhəmiyyət kəsb etməsini nəzərə alaraq, AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Elmi Şurasının 25 iyun 2018-ci il tarixli iclasının (9 saylı protokol) qərarı ilə çapa tövsiyə edilmişdir. Ədəbiyyatşünaslığımızın ədəbiyyat nəzəriyyəsi, ədəbi tənqid, ədəbiyyat tarixi, müasir poeziya və nəsr kimi problemlərini özündə əks etdirən bu kitabda müəllif Azərbaycan ədəbiyyatşünaslığının inkişafında mühüm xidmətləri olmuş elm xadimlərinin elmi fəaliyyəti barədə xüsusi araşdırmalar aparmış və onları elmi ictimaiyyətə təqdim etmişdir. Topludakı elmi məqalələr məntiqi cəhətdən biri digərini tamamlayan monoqrafik əsər kimi qəbul edilə bilər.

Kitabda son vaxtlar maraq doğuran problemli məqamlara aydınlıq gətirilir. Kitabda Azərbaycan ədəbiyyatşünaslığının əsas tədqiq obyektləri və tədqiqat istiqamətləri, Çağdaş Azərbaycan bədii dilinin inkişaf özəllikləri və problemləri, "Qadın nəsri" anlayışının nəzəri problemləri, postmodern anlayışının yaranması və janr xüsusiyyətləri, Azərbaycan postmodern nəsri, poeziyası və dramaturgiyası, çağdaş Azərbaycan bədii detektivi, romanlarda soyqırımı mövzusu, islam refleksiyasının aksioloji və antoloji amilləri, kreollaşmış romanın dünya və Azərbaycan ədəbiyyatında genezisi, əsas janr xüsusiyyətləri kimi problemləri tədqiq edən məqalələrin ədəbiyyat nəzəriyyəsinin müasir aktual problemləri baxımından geniş təhlili əhəmiyyət kəsb edir.

Kitabda ədəbiyyat tarixçiliyi ilə ədəbiyyat nəzəriyyəsi müəllif tərəfindən sintez edilərək təqdim edilir:

"Bu özünü Əhməd Yasəvinin bədii və fəlsəfi-dini irsi haqqında, Məhtimqulu Fəraqi irsinin türkmən və ümumtürk dəyərlər qovşağında, müasir Azərbaycan romanında Nəsimi obrazına müraciətdə və digər problemli məsələlərin tədqiq edilməsində özünü göstərə bilmişdir" [1, s.281-284].

S.Şərifova Çingiz Aytmatovun postsovet ədəbi irsini, Ceyhun Hacıbəylinin "Bir il xəyallarda və bütöv bir ömür" roman-essesinin janr formasını, cənub şəhərinin detektiv yazarı Çingiz Abdullayevin irsini, Aqil Abbasın "Dolu" romanının süjet xəttinin özəlliklərini, Şəmil Sadiqin "OdƏrlər"inin milli təkamül yolunu, Tahir Kazımovun "Qırmızı rəng" romanında müasir qərb cəmiyyətində ədalət böhranının bədii təsvirini, Vaqif Sultanlının "İnsan dənizi" əsərinin bədii üslub palitrasını, İlqar Fəhminin "Evtanaziya" kinoromanının janr xüsusiyyətlərini və s. ədəbiyyat tarixçiliyi ilə ədəbiyyat nəzəriyyəsini sintez edərək təqdim edir.

Kitabda Rəsul Rzanın keçmişdən müasirliyə, qulluqdan vətəndaşlığa, Şimaldan Cənuba, millilikdən ümumbəşəriliyə yüksəlişinin bədii təcəssümünün əks olunması ictimaiyyətin diqqətindən yayınmamışdır. Salidə Şərifovanın Xalq şairi Rəsul Rzaya həsr etdiyi bu məqalə yüksək dəyərləndirilmiş, 19 may 2017-ci ildə Rəsul Rza adına Ədəbiyyat Fondunun "Rəsul Rza mükafatı"na layiq görülmüşdür.

"Filologiya elmləri doktoru Salidə Şərifovanın nəzəri biliklərə dərindən bələd olan peşəkar alim olması haqqında danışdığımız əsərində özünü bir daha təsdiq edə bilir. Salidə Şərifovanın qələmə aldığı məqalələr ədəbiyyat nəzəriyyəsini dərindən bilən müəllif qələminin məhsuludur.

Əsərlə tanış olduqca mövzuların müxtəlif və rəngarəng olması, ilk növbədə, diqqəti cəlb etməklə Salidə Şərifovanın həm milli, həm dünya ədəbiyyatına dərindən bələd olmasını göstərmişdir" [1, s.281-284].

Salidə Şərifovanın "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" adlı monoqrafiyası Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 28 fevral 2020-ci il tarixli iclasının (02 saylı protokol) qərarı ilə çapa tövsiyə olunub. O, Sabir Rüstəmxanlının "Orxanla görüş", "Atəş böcəyi", "Azərbaycan irticası", "Cavad xan", "Vətənsiz", "Bütövlük", "Didərginlər" və s. poemalarını, "Acı xatirə", "İnansa Təbriz deyil!", "20 Yanvar xatirəsi", "Xocalıdan sonra" və s. poetik nümunələrini, "Yardımlıya dönərkən", "Son", "Neyləyim", "Qorusun", "Dözüm", "Gözünü yumdunmu", "Güvənmirəm", "Yumruqlar çiçək açıb", "Tapşır məni", "Gizlət məni", "Vida qabağı", "Çəkdim sinəmə tüstütək" və digər poetik nümunələrini, "Göy Tanrı", "Ölüm zirvəsi", "Difai fədailəri", "Sunami", "Şair və Şər", "Akademikin son əsəri" kimi romanlarını, "Tanımaq istəsən", "Xəbər gözləyirəm", "Gəncə qapısı", "Sağ ol, ana dilim!", "Qan yaddaşı", "Zaman məndən keçir" kimi şeir kitablarını, "Astar" kitabında əksini tapmış hekayələrini, epistolyar məktublardan ibarət "Milli taleyimiz və biz" (Güntay Gəncalp Bayandırlı və Saleh Məhmətlə məktublaşmalarım), "Ömür kitabı", "Atamın ruhu", "Xətai yurdu", "Bu sənin xalqındır" və s. əsərlərini janr baxımından monoqrafiyasında geniş şəkildə tədqiq edir.

Monoqrafiyada Salidə Şərifovanın Sabir Rüstəmxanlı yaradıcılığında janr qarışıqlığının müxtəlif xarakter daşımasına toxunması, ədəbi nümunələrin iştiraketmə xüsusiyyətindən və janrlarla qarışıqlı əlaqəsindən asılı olaraq, qarışıqlığın növlərarası, növlərdaxili və janrdaxili qarışıqlıq kimi üç formasının özünü göstərməsinin büruzə verməsi elmi maraq kəsb edir. Monoqrafiyada ədəbiyyatımızda az rast gəlinən "balaca romanlar"ın Sabir Rüstəmxanlı yaradıcılığında rast gəlinməsi məqamı da maraq doğurur:

"Müəllif Sabir Rüstəmxanlının "Astar" kitabına daxil edilən romanlarla Azərbaycan ədəbiyyatında özünü göstərmiş "balaca romanlar" janrının ənənəsini davam etdirməsini qeyd edir. Salidə Şərifova "balaca romanlar"ın əsl sosial gündəlik romanlar olmamasına toxunaraq, ideoloji əhəmiyyətli problemləri və insan həyatından olan aktual problemləri əks etdirə bilməsini göstərir" [2, s.7].

Xalq şairi Sabir Rüstəmxanlının Salidə Şərifovanın elmi yaradıcılığını, həmçinin özü haqqında olan monoqrafiyanı yüksək dəyərləndirməsi də nəzəriyyəçi alimin elmi yaradıcılığına verilən dəyərdir:

"Elm və təhsil" nəşriyyatı tanınmış ədəbiyyatşünas alim, filologiya elmləri doktoru, professor, bir sıra dəyərli ədəbiyyatşünaslıq və bədii nəsr əsərlərinin müəllifi Salidə Şərifovanın "Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi" adlı elmi monoqrafiyasını nəşr etmişdir. Kitabı mənə aid olduğuna görə yox, bir ədəbiyyatşünas gözüylə diqqətlə oxudum və razı qaldım. Salidə xanım ciddi nəzəri hazırlığı olan, ədəbi prosesi diqqətlə izləyən, sözün və sözünün dəyərini bilən alimlərimizdəndir. Ona böyük zəhmətinə görə təşəkkürümü bildirirəm... Var olsun!" [5].

Salidə Şərifovanın Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Elmi Şurasının 9 dekabr 2020-ci il tarixli iclasının (6 saylı protokol) qərarı ilə "Qanun" nəşriyyatında işıq üzü görmüş "Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri" adlı monoqrafiyasında Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti, şair, yazıçı, publisist Fərəc Fərəcovun yaradıcılığı geniş şəkildə tədqiq edilir. Fərəc Fərəcovun bədii və elmi publisistikasının, qələmə aldığı nəzm və nəsr əsərlərinin problematikasının, janr müxtəlifliyinin və bədii xüsusiyyətlərinin geniş təhlil edilərək ictimaiyyətə təqdim edilməsi təqdirəlayiqdir.

Akademik İsa Həbibbəylinin monoqrafiyanın "Əməldə və əsərlərində özünüifadə nümunəsi" adlı ön sözündə monoqrafik tədqiqatı Fərəc Fərəcovun yaradıcılıq fəaliyyətinin danışan dili kimi qiymətləndirməsi əsərə verilən dəyər kimi qəbul edilməlidir:

"Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru Salidə Şərifovanın "Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri" adlı monoqrafiyasında ilk dəfə olaraq yazıçı-publisistin həyatı və yaradıcılıq yolu geniş şəkildə təhlil olunub elmi cəhətdən qiymət-

ləndirilmişdir. Yaxşı cəhətdir ki, Salidə Şərifova Fərəc Fərəcovun yaradıcılığını yalnız mövzu dairəsinə və ideya cəhətdən aktuallığına görə deyil, həm də bədii-sənətkarlıq xüsusiyyətləri ilə birlikdə tədqiq edib nəzəri cəhətdən ümumiləşdirir. Təqdim olunan monoqrafiya yaradıcılığı az tədqiq və təbliğ olunmuş Fərəc Fərəcovun ədəbi portretini açıb göstərən əhəmiyyətli elmi oçerklərdir. Tanınmış yazıçı-publisist Fərəc Fərəcov haqqında yazılmış kitab əməlləri və əsərləri ilə özünü həyatda və ədəbiyyatda təsdiq etmiş təmkinli Azərbaycan ziyalısı və özünəməxsus xidmətləri olan yazıçı-publisist Fərəc Fərəcovun yaradıcılıq fəaliyyətinin "danışan dili", elmi dərkidir" [3, s.9-10].

Salidə Şərifova Fərəc Fərəcovun "Cavabsız sevgi", "Hekayələr" kimi povest və hekayələr toplularını, "Aydın sabahlar", "Ömür bir nağıldır" romanlarını, "Vətən qürurumdur mənim", "Elə bağlıyam" şeirlər toplularının, "Müstəqillik yollarında" poemasını, "Culfa şəhidləri", "Yayçı soyqırımı", "Yayçı yetirmələri", "Sən olmasaydın", "Sənət məbədinin sənətçiləri", "Jurnalist", "Muxtar respublika mətbuatı: dünən və bu gün" publisist kitablarını janr və problematika baxımından geniş tədqiq edərək ictimaiyyətə təqdim etmişdir.

Azərbaycan ədəbiyyatında Qarabağ probleminin əks etdirilməsi aktual problem kimi diqqət mərkəzindədir. Ədəbiyyatımızda qələm sahibləri Qarabağ müharibəsini və problemlərini müxtəlif ədəbi janrlarda qələmə aldıqları əsərlərində milli və özünəməxsus özəllikləri vurğulamağa çalışırlar. Filologiya elmləri doktoru Salidə Şərifova "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunu əks etdirən əsərlərin problematikası, janr müxtəlifliyi və xüsusiyyətləri" monoqrafiyasında ədəbiyyatımızda Qarabağ mövzusunu əks etdirən əsərlərin problematikası ilə yanaşı, əsərlərin qələmə alındığı janr müxtəlifliyinə və onlara məxsus xüsusiyyətlərə aydınlıq gətirir.

Monoqrafiyada Salidə Şərifova problemi həm xronoloji ardıcıllıqla, həm də janr baxımından izləyir. Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunu nəzmdə, nəsrdə, dramda, publisistikada, elmi tədqiqatlarda işlənmə xüsusiyyətlərini geniş tədqiq obyektinə çevirir. Salidə Şərifovanın tarixilik baxımından bu mövzunu Birinci Qarabağ müharibəsi və 44 gün davam edən Vətən müharibəsi kimi iki tarixi mərhələdə təhlilə cəlb etməsi elmi əhəmiyyət kəsb edir. Akademik İsa Həbibbəyli monoqrafiyaya yazdığı ön sözdə bu məqamı belə vurğulayır:

"Salidə Şərifovanın XX əsrin 90-cı illərindən XXI əsrin bizim günlərə qədərki zaman axarında Qarabağ mübarizəsini əks etdirən bədii ədəbiyyatı Birinci Qarabağ müharibəsi və Vətən müharibəsi dövrlərinin ədəbiyyatı kimi iki qismə ayırması təqdirəlayiqdir. Müəllif 2016-ci il dördgünlük Qarabağ müharibəsini də nəzərdən qaçırmır, Aprel döyüşlərinin bu iki müharibə arasında keçid rolunu oynamasını xüsusi olaraq vurğulayır. Tədqiqatçımızın dövrün ədəbiyyatına və ədəbi prosesinə sistemli yanaşması mövzunun uğurlu elmi həlli baxımından əhəmiyyətlidir" [4, s.8].

Salidə Şərifova ədəbiyyatımızda müxtəlif janrlarda qələmə alınmış bədii nümunələrin müxtəlif növ və janrlarda təşəkkül və formalaşması prosesinin əks olunması məsələsinə xüsusi diqqət ayırması elmi maraq doğurur. Müəllifin Qarabağ müharibəsi və "Qarabağ romanı", Qarabağın və Azərbaycanın digər rayonlarının işğalına şərait yaratmış xarici və daxili amillərin təsviri, erməni millətçiliyinin "varisliyi", erməni işğalçısının təsviri, erməni əsirliyinin əksi, ən əsası isə zəfərimizin, Vətən müharibəsinin qalibiyyətinin təsviri bu baxımdan əhəmiyyət kəsb edir. Monoqrafiyada maraqlı məqamlardan biri də, müəllifin professional nəzəriyyəçi alim kimi toxunduğu və elmi əhəmiyyət kəsb edən janr qarışıqlığı anlayışına, növdaxili, növlərarası janr qarşılığı olması faktlarına, "Qarabağ romanı" janrının formalaşmasına aydınlıq gətirməsidir. Müəllif "Qarabağ romanı" janrını növdaxili janr qarışıqlığının nümunəsi kimi təqdim edir. Bu təqdimat mübahisəli olsa da, elmi və nəzəri sübutları ilə mübahisələrə son qoyur. Müəllif "Qarabağ romanı" adlandırdığı yeni roman tipinə aid nümunələrin müharibə romanı ilə oxşar və fərqli xüsusiyyətlərə malik olmasına toxunur. "Qarabağ romanı" janrında qələmə alınmış əsərlər kimi Elçin Mehrəliyevin "Doxsanıncı illər", Aqil Abbasın "Dolu", Fazil Günayın "Qara qan", Nüşabə Məmmədlinin "Zəngülə", Mahirə Abdullanın "Əvvəl axır" və s. əsərləri təh-

lil edilir. Bu əsərlərdə Azərbaycanın tarixi ərazilərindən olan Qarabağın və ətraf rayonlarının işğalı və erməni millətçiliyinin yaramaz mahiyyəti təhlil obyektinə çevrilir. Salidə Şərifova monoqrafiyada romanda sənədli, tarixi faktların əks etdirilməsi amilinə, növlərarası janr qarışıqlığının nümunələrinin formalaşması faktına da biganə qalmır. Qarabağ mövzusunu əks etdirən əsərlər tarixi və bədii gerçəklik fonunda janr, mövzu, obraz və s. baxımından geniş elmi təhlilini tapır.

S.Şərifova "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunu əks etdirən əsərlərin problematikası, janr müxtəlifliyi və xüsusiyyətləri" adlı monoqrafik tədqiqatında ədəbiyyatımızda nəzm, nəsr və dram növünün müxtəlif janrlarında qələmə alınmış əsərlərin janr, problematika xüsusiyyətlərinə geniş və elmi yanaşmasını əks etdirir. Müəllif onlarda özünü büruzə verən müxtəlifliyə də aydınlıq gətirir, nəzm, nəsr, dram və s. bağlı olan araşdırmalar elmi-nəzəri səviyyəsi ilə bir-birini tamamlayır.

Salidə Şərifova həmçinin son illərdə Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunda qələmə alınmış əsərlərin problematikasında, janrında baş verən dəyişikliklərə toxunur. Müəllif 2016-ci ildən sonra qələbəyə inamı bədii nümunələrin problematikası ilə yanaşı, janrlarında da əks olunması faktına aydınlıq gətirir. Müəllif janr baxımından marşların zəfərdən sonra dəyişməsini göstərməsi isə diqqətdən yayınmır. Vətən Müharibəsindən sonra ədəbiyyatda janr baxımından dəyişikliklərin olacağı məqamı da tədqiqatda əksini tapır.

S.Şərifovanın "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunu əks etdirən əsərlərin problematikası, janr müxtəlifliyi və xüsusiyyətləri" əsərində publisistika və elmi janrların problematikasına, elmi və bədii publisistikanın xüsusiyyətlərinə, elmi tədqiqatlara nəzəri yanaşma da yer alır. Məhz Qarabağ mövzusunu əks etdirən nəsr əsərləri, nəsrdə kiçik janr formaları olan hekayə janrı, pritçalar, povestlər, nəsrin böyük janr forması olan roman janrı və s. tədqiq edilməsi maraq doğurur.

Müəllifin monoqrafiyada Qarabağ problematikasını əks etdirən nəzmin problematikasına və janr müxtəlifliyinə də nəzər salması da diqqətdən yayınmır. Filologiya elmləri doktoru Salidə Şərifova nəzmin kiçik və böyük nəzm formalarında yaranmış bədii nümunələrə aydınlıq gətirir. Nəzm nümunələrinin problematikasını, təsvir üslubları və dil xüsusiyyətlərini, obrazlarını geniş təhlil obyektinə çevirir. Müəllif Qarabağ mövzusunu əks etdirən nəzm əsərlərində sərbəst şeirə, marşa və s. müraciət edilmə məqamına da xüsusi diqqət yetirir. Qarabağ mövzusunu əks etdirən dram əsərlərinin problematikası, janr müxtəlifliyi və xüsusiyyətləri də müəllif tərəfindən geniş tədqiq edilir.

Salidə Şərifova əsərdə Birinci Qarabağ müharibəsi zamanı formalaşmış "Qarabağ romanı" və 44 gün davam etmiş Vətən müharibəsindən sonra yaranacaq "Qarabağ roman"larının janr baxımından fərqlənəcəyinə toxunur. Müəllifin 44 günlük müharibədən sonra əldə edilmiş zəfəri əks etdirən yeni tipli "Qarabağ romanı"nın yaranacağını proqnozlaşdırması da maraqlı məqamlardandır.

Akademik İsa Həbibbəyli monoqrafiyanın "kompleks tədqiqat xarakteri daşımasına" toxunur, "...akademizm, müqayisəli analiz metodu əsərin elmliyini, ədəbiyyatşünaslıq baxımından əhəmiyyətini göstərir" və "ədəbiyyatşünaslıq elmi üçün yeni bir töhfə" [4, s.8] hesab edir.

## Nəticə / *Conclusion*

Məqalədə filologiya elmləri doktoru Salidə Şərifovanın elmi yaradıcılıq yolu izlənilir və ədəbiyyatşünaslığın, ədəbiyyat nəzəriyyəsinin yetərincə mürəkkəb sahələrini tədqiq etməsi xüsusi vurğulanır. Salidə Şərifovanın elmi tədqiqatlarında ilk Azərbaycan romanlarını, Azərbaycan nəsrində janrların təşəkkül və formalaşması prosesini, çağdaş Azərbaycan ədəbiyyatında postmodernizm cərəyanını, romanda janr qarışıqlığını, roman-hekayət, "balaca romanlar"ı, magik realizm cərəyanını, kreollaşmış romanları, detektiv ədəbiyyatı, romanlarda ictimai-siyasi mühitin təsviri problemləri və s. haqqında mürəkkəb, birmənalı olmayan fikirlərə aydınlıq gətirməsi gələcəkdə bu problemlərin geniş tədqiqi üçün sanballı mənbəyə çevrilə bilmişdir.

Salidə Şərifovanın Azərbaycan ədəbiyyatşünaslığını yalnız Azərbaycanda deyil, bir çox yaxın və uzaq ellərdə yüksək səviyyədə təmsil etməsi iftixar hissi doğurur.

**Ədəbiyyat / *References***


1. Əliyev, M. *Klassiklər və müasirlərin yaradıcılığına yeni baxış (S. Şərifova. Klassiklər və müasirlər söz müstəvisində. Bakı, 2018) //* Filologiya və sənətşünaslıq, 2021, № 1.
2. Əliyeva, S. *Sabir Rüstəmxanlı yaradıcılığı yeni təfəkkür hadisəsi kimi* // Şərifova S. Sabir Rüstəmxanlı yaradıcılığının janr müxtəlifliyi. – Bakı: Elm və təhsil, 2021.
3. Həbibbəyli, İ. *Əməldə və əsərlərində özünüifadə nümunəsi* // Şərifova S. Fərəc Fərəcov yaradıcılığının problematikası, janr müxtəlifliyi və bədii xüsusiyyətləri. – Bakı: Qanun, 2021.
4. Həbibbəyli, İ. *Ədəbiyyatda Qarabağ mövzusunun elmi-nəzəri dərki. Salidə Şərifova* // Müstəqillik dövrü Azərbaycan ədəbiyyatında Qarabağ mövzusunu əks etdirən əsərlərin janr xüsusiyyəti, problematikası, obrazları və bədii dili. – Bakı: Elm və təhsil, 2022.
5. Rüstəmxanlı, S. // https://www.facebook.com/photo/?fbid=4570047146358201&set=a.1215447301818219 // 26 mart, 2021.
6. Salmanov, Ş. *Ön söz* // Şərifova S. Azərbaycan nəsr janrlarının təşəkkül və formalaşma prosesi (XX əsrin əvvəllərinə qədər). – Bakı: Elm, 2005.


## ОБЗОР НАУЧНЫХ ИССЛЕДОВАНИЙ ТЕОРЕТИКА ЛИТЕРАТУРЫ САЛИДЫ ШАРИФОВОЙ


**Мамед Алиев**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: turk_xalqlari_edebiyyati@mail.ru



**Резюме.** Научная деятельность доктора филологических наук, профессора НАНА, действительного члена Российской Академии естественных наук Салиды Шарифовой охватывает проблемы теории литературы, истории литературы. В научных изысканиях Шарифовой С. поднимаются проблемы двухэтапного возникновения жанра романа в отечественной литературе, особенностей жанрового построения «романа-хекаят», формирования нового типа военного романа в современной литературе, а также автором выдвинута теория смешения жанров в романе, рассмотрены особенности креолизованных романов как особого типа романа, также затронуты иные актуальные теоретические проблемы. Литературоведческие исследования Салиды Шарифовой в области теории литературы, постмодернистской литературы, магического реализма, детектива, эпического романа и его жанрового разнообразия, жанровых особенностей классической средневековой литературы и её влияния на современную литературу, жанровых особенностей древних и средневековых тюркских образцов фольклора и письменного творчества, а также современной иностранной литературы характеризуются особым отношением к теоретическим проблемам. С.Шарифова выделила отдельные формы смешения жанров в романе, сгруппировала их, объяснив жанровую сущность романа в зависимости от используемой формы смешения жанров и объяснила жанровые особенности романа в рамках разных форм смешения жанров.



**Ключевые слова:** Салида Шарифова, азербайджанское литературоведение, теория литературы, научное исследование, ученый-теоретик